# ATƏT-in İspaniya Sədrliyi foto müsabiqəsi elan edi

Vyana, 13 fevral 2007-ci il – Bu gün ATƏT-in İspaniya sədrliyi “Torpaq və su, zərif ətraf mühitimizin müdafiəsində” mövzusunda foto müsabiqə elan edib.

Bir (və ya bir neçə) foto üçün əsas mükafat Canon EOS-30D fotoaparat dəsti olacaq. Bir neçə iştirakçılar isə hər biri 500$ miqdarında məbləğlə mükafatlandırılacaqlar.

Foto müsabiqəyə qoşulmaq üçün ərizə müraciət formaları və qaydaları ilə bu səhifədə tanış ola bilərsiz və ya http://www.osce.org/item/23220.html saytında yüklənə bilər.

Müsabiqədə iştirak ödənişsizdir və ATƏT regionunda yaşayan və çalışan istər həvəskar, istərsə də peşəkar fotoqraflar üçün açıqdır.

Fotolar 56 ATƏT iştirakçı dövlətlərinin torpaq və suya ilə əlaqədar ətraf mühit məsələlərinə aid olmalıdır və fotolar 2000-ci ildən sonrakı dövrü əhatə etməlidir.

*ATƏT-in heyəti bu müsabiqədə iştirak edə bilməz.*

Müsabiqəyə həm tək, eyni zamanda, bir neçə (8-dən çox olmamaqla) fotoşəkil təqdim edilə bilər.

Ərizə formalarının təqdim edilməsi üçün son tarix 31 mart 2007-ci ildir.

Qiymətləndirmə aprel ayının sonunda baş tutacaq və müsabiqənin qalibi may ayının sonunda Praqada keçiriləcək ATƏT-in 15-ci İqtisadi və Ətraf Mühitə dair Forumunda elan ediləcək.

*Bu il Forumun əsas mövzusu: “ATƏT ərazisində ətraf mühit və davamlı inkişafın təmin edilməsində əsas problemlər: Torpağın deqradasiyası, torpaq çirklənməsi və su resurların idarəedilməsi” olacaq.*